

XALİQ LAÇINLI

## Dili yoxdu

*(Həyatdan vaxtsız gedən həyat yoldaşımın baş daşına baxarkən)*

Dəfələrlə sığal çəkdim,
Baş endirib diz də çökdüm,
İslanınca yaş da tökdüm,
Bu daşın dili yox imiş.

Əzizlədim, gedib-gəldim,
Dərddə azdım, qəmdə itdim.
Gileyləndim, giley etdim,
Bu daşın dili yox imiş.

Bu daşın yaşı süzülmür,
Nə ağlamır, üzü gülmür.
Bu daşın "canı" üzülmür,
Bu daşın dili yox imiş.

Bu qismətə, dərdə baxın,
Ürək imiş dərdə yaxın.
Danışmadım, dərdin çoxdu,
Bu daşın dili yox imiş.

Fələk gidi, mənsə naşı,
Daşı, canım, dərdi daşı.
Susub baxır bu baş daşı,
Bu daşın dili yox imiş.

Xaliq tökər yaş, kiriməz.
Yay kiriməz, qış kiriməz.
Daş ağlamaz, daş kiriməz
Bu daşın dili yox imiş.

## Əllərimə

Bu gün də dərdimlə kef eləmişəm,
Bu gün də bir arzu dəfn eləmişəm.
Bu gün bir həsrəti əhv eləmişəm,
Kövrəlib demişəm, yan əllərimə.

Ölən arzuların sanı bilinmir,
Zamanı bilinmir, anı bilinmir.
Yaxşı ki, tökülən qanı bilinmir,
Yoxsa bulaşardı qan əllərimə.

Həmişə qənşərim qaşa çıxıbdı,
Dəyib, çiliklənib, daşa çıxıbdı.
Yenə də əllərim boşa çıxıbdı,
Bir deyən olmadı "can" əllərimə.

Xaliq ümidini gümana bağlar,
Günahı illərə, zamana bağlar.
Harayın min ahı amana bağlar,
Haçansa açılar dan əllərimə.

## Dərd edəcəyəm

Gedirsən, get, yollar açıq,
Unutma ki, biz sirdaşıq.
Fikir, xəyalım dolaşıq,
Özümə dərd edəcəyəm.

Qəm azalmaz bölməyəndə,
Yad qədrimi bilməyəndə,
Baxıb sənə gülməyəndə,
Gözümə dərd edəcəyəm.

Xoş gəldim dərdin gözünə,
Bənd edib bağlar özünə.

Öyrəşib üzüm üzünə,
Üzümə dərd edəcəyəm.

Çoxalıb ahım-amanım,
Sən ümidim, sən gümanım.
Çətin ki, dözüm, dayanım,
Dözümə dərd edəcəyəm.

Xəyalım dörd dolanacaq,
Gözüm yolunda qalacaq.
Həsrət bezib, yorulacaq,
Düzümə dərd edəcəyəm.

Kimsəsizdir axı Xaliq,
Sevincdən az, dərddən boluq.
Biz ayrılan iki yoluq,
İzimə dərd edəcəyəm.

## *Dilinə gəlmədi*

Durmuşuq üz-üzə sözü yox kimi,
Baxırıq həyata gözü tox kimi.
Dinib danışmırıq üzü yox kimi,
Deyəsən, bağlanıb bu bəxtin gözü,
Dilinə gəlmədi "sevirəm" sözü.

Duyuram, təntiyir titrək nəfəsin,
Başqa bir havada ürəyin, səsin.
Elə bil, donubdu sevgin, həvəsin,
Beləcə kül oldu bu odun közü,
Dilinə gəlmədi "sevirəm" sözü.

-Bu anın qədrini bilək, - deyirsən.
-Gedək, bu yollardan dönək, - deyirsən.
-Enək fələklərdən, enək, - deyirsən.
Dinmirəm qarşında, dinmirəm düzü,
Dilinə gəlmədi "sevirəm" sözü.

Bu mənim qismətim, sənin inadın,
Çıxara bilmədik sevginin dadın.
Qəlbində söndürdün bu eşqin odun,
Bilmirəm, bəs nədən allanıb üzün?!
Dilinə gəlmədi "sevirəm" sözü.

Nə məndən uzaqdın, nə mənə yaxın,
Baxın əzabıma, günümə baxın.
Qaldım arasında "hə" ilə "yox"un,
Odlayar özümü közərən közüm,
Dilinə gəlmədi "sevirəm" sözü.

## *Nə günahı*

Salam verdim, əl tutmadın,
Əllərimin nə günahı?!
Qucağımda soluxsundu,
Güllərimin nə günahı?!

Ya tilsimdi, ya ofsundu,
Eşqin gözlərimdə dondu
Qəhərlənib, doluxsundum,
Çöllərimin nə günahı?!

Yollarıma daş atdılar,
Mənə nələr yaşatdılar.
Baş ağartdım, baş qatdılar,
Tellərimin nə günahı?

Yenə yatmır söz düzümə,
Qayıdıb dəyir özümə.
Dəm verirəm hey gözümə,
Sellərimin nə günahı?!

Bilmirəm, necə xoşladım,
Sığalla dərdi oxşadım.
Didərgin ömür yaşadım,
Ellərimin nə günahı?!

Daş atıb, başı tutmuşam,
Bələdçi, naşı tutmuşam.
Günahkar yaşı tutmuşam,
İllərimin nə günahı?!

Gözlədim, baxtı gözlədim,
Dayandım, vaxtı gözlədim.
Qismət də yoxdu, gözlədim,
Günlərimin nə günahı?!

Xaliq düşüb qana, gəlməz.
Yerli-yersiz qına, gəlməz.
Yadırğayıb, sona gəlməz,
Göllərimin nə günahı?!

## *Səndən ötrü*

Yaman səksəndirdim bu daş yolları,
Bir kimsə keçməyən o boş yolları.
Yenə təkləyəcək bu qış yolları,
Yollar da darıxar keçəndən ötrü,
Elə darıxıram mən səndən ötrü.

Payız bu çəməni yolar, aparar,
Açan çiçəkləri solar, aparar.
Çöllərdə kimsəsiz qalar, aparar,
Biçənək darıxar biçəndən ötrü,
Elə darıxıram mən səndən ötrü.

Qalıbdır binələr, yurdlar yiyəsiz,
Ulayar səhrada qurdlar yiyəsiz.
Bulagın bagrı da çatlar yiyəsiz,
Sular da darıxar içəndən ötrü,
Elə darıxıram mən səndən ötrü.

Bir yolcu yol qırar toran-torana,
Ayrılıq səpəcək duzu yarama.
Həsrətlə boylanar daglar arana,
Yaylaqlar darıxar köçəndən ötrü,
Elə darıxıram mən səndən ötrü.

Fikrim uzaqlarda, gözüm yol cəkər,
Dözüm ayrılıga, dözüm birtəhər.
Alar qısasını geçədən səhər,
Gecə darıxarlar səhərdən ötrü,
Elə darıxıram mən səndən ötrü.

Həyat bir tamaşa, oyun gülməli,
Hamıya acılmır talenin əli.
Sən mənim gözümdə dünya gözəli,
Baxışlar zillənər ötəndən ötrü,
Elə darıxıram mən səndən ötrü.

## Çəkil, get

Sevib səni ürəyimə hörmüşəm,
Qram-qram, para-para sökül, get.
İstəmirəm ta qarşımda durasan,
"Gözlərimin səkisi"ndən çəkil, get.

Daş bağlayıb bu bağrıma dözərəm,
Əllərimi ümidsiz tək üzərəm.
Damla-damla gözlərimdən süzərəm,
Gözlərimin qarasından tökül, get.

Günlərimi belə yoldun, yol, apar,
Son ümidim bir cığırdı, yol tapar.
Meydanımda ayrılığın at çapar,
Sənə çatan toz-dumana bükül, get.

Çətin kimsə bu könlümü ovuda,
İtirmişəm bərəni də, ovu da.
Həyat nakam, hökm oxuya lap Xuda,
Olub mənə əzabların vəkil, get.

Xaliq bilir, qəm ürəyə qənimdi,
Vaxt üyüdür, dəyirmandı, dənimdi.
O ürəyin sevir, sevmir, sənindi,
Sən elə qal xatirimdə şəkil, get.

## Sənsizlik və sükut

Gəlimdən, gedimdən bu yol üzülüb,
Tikilib harasa bir göz, süzülüb,
Bir ümid tükənib, bir əl üzülüb,
Sənsizlik, sənsizlik, bir də ki, sükut.

Heç nə dəyişməyib, öz yerindədi,
Yamac yamacında, düz yerindədi.
Sənsiz də yandırır göz, yerindədi,
Sənsizlik, sənsizlik, bir də ki, sükut.

Qəm- kədər, lal sükut, elə mənimtək,
Qarışıb odumda külə mənimtək.
Tənhalıq kəsilib mənə qənimtək,
Sənsizlik, sənsizlik, bir də ki, sükut.

Sükut layla çalır bu an gecəyə,
Yamanca sərilib səssiz küçəyə.
Tənhalıq sığınıb bir düşüncəyə,
Sənsizlik, sənsizlik, bir də ki, sükut.

Ötüşər beləcə, günə nə gərək?!
Götürər payını, kimə nə gərək?!
Toxunma, o sarı simə nə gərək?!
Sənsizlik, sənsizlik, bir də ki, sükut.

Qarışıb işinə başın bəlkə də,
Dağılıb balınca saçın bəlkə də,
Donub gözlərində yaşın bəlkə də,
Sənsizlik, sənsizlik, bir də ki, sükut.

Bəlkə də yadına düşən deyiləm,
Bəlkə də qəlbinə köçən deyiləm.
Tənhalıq üşüdür, o "sən" deyiləm,
Sənsizlik, sənsizlik, bir də ki, sükut.

Kənardan bir kölgə sürünüb, gedir,
Geyib qaranlığı, bürünüb, gedir.
"Sənsizlik" gözümə görünüb, gedir,
Sənsizlik, sənsizlik, bir də ki, sükut.

Beləcə bir sükut, bir də mən tənha,
Dayandıq ümidlə üzü sabaha.
Mələklər yanırdı çəkdiyim aha,
Sənsizlik, sənsizlik, bir də ki, sükut.

Beləcə içimi sıxdım vərəqə,
Bütün günahımı yıxdım vərəqə.
Bu gecə əridim, axdım vərəqə,
Sənsizlik, sənsizlik, bir də ki, sükut.